# «Qəzet bir güzgüdür. Oxucu orada həyatın işıqlı tərəfini də, qaranlıq tərəfini də tapmalıdır».

Heydər ƏLİYEV.

# 85 yaşlı "Qəbələ"

## və ya «Əkinçi»dən 58 il sonra rayonumuzda buraxılan ilk qəzet

22 iyul 1875-ci ildə Həsən bəy Zərdabinin redaktorluğu ilə nəşrə başlayan "Əkinçi" adlı qəzetin ilk nömrəsinin buraxılışı milli Azərbaycan mətbuatının əsasını qoymuşdur. Həmin tarixdən artıq 143 il keçmişdir. Ötən illər ərzində Azərbaycanda yüzlərlə, minlərlə adda qəzet və jurnallar çap edilmiş, onların hər biri öz missiyasını yerinə yetirərək çapını dayandırdıqda başqası işıq üzü görmüşdür. Bu nəşrlərin hər biri ətrafında minlərlə oxucu toplaya bilmişdir.

Vaxtilə qəzeti çap etmək üçün redaktorlar bircə ziyalı tapmadığı halda, ötən illər ərzində ölkədə təcrübəli və səriştəli, çox güclü jurnalistlər ordusu yaranmışdır. Bu ordu isə cəmiyyətin aparıcı qüvvələrindən birinə çevrilmişdir.

"Əkinçi" qəzetindən düz 58 il sonra 1933-cü ilin oktyabr ayının 15-də Qəbələdə (əvvəlki Qutqaşında) 2 səhifəlik "Bolşevik mübarizi" adlı qəzet işıq üzü görmüşdür. Sonralar bu mətbu nəşrin "Mübariz", "Yeni həyat", "Qalibiyyət" və nəhayət "Qəbələ" adları altında 7495 nömrəsi çapdan çıxmışdır.

Qəzet müxtəlif vaxtlarda müxtəlif dövrülüklərlə çap olunsa da öz nəşrini dayandırmamışdır.

İndiyədək qəzetin 18 redaktoru olmuşdur. İlk illərdə cəmi bir-iki nəfərlə nəşrə başlayan qəzetin redaksiya və mətbəəsində 1980-ci illərin ortalarında 32 nəfərdən ibarət böyük bir kollektiv çalışmış, qəzet 5-6 min tirajla çap olunmuşdur.

Lakin 1988-ci illərdə keçmiş SSRİ məkanında baş verən dərin iqtisadi böhran qəzetdən də yan keçməmişdir. Nəticədə, qəzetin tirajı sürətlə aşağı düşmüş, mətbəəsi bağlanmış, işçilərin sayı 6 nəfərə enmiş, tirajı isə 80-130 nüsxədə dayanmışdır. Maliyyə imkanlarının məhdudluğuna görə hətta həmin dövrdə qəzetin nüsxələri şəkilsiz çap olunmuşdur.

Redaksiyada dözüb dayana bilən jurnalistlərin və az sayda texniki personalın qətiyyəti, inamı və fədakarlığı sayəsində qəzetin çapı davam etmiş, az tirajla da olsa çap olunub yayımlanmışdır. Bəzən işçilər 9-10 ay əmәkhaqqı almasa da ruhdan düşməmiş, qəzetin çapını dayandırmamışlar.

Lakin rayon icra hakimiyyətinin yaxından köməkliyi və dəstəyi ilə 2001-ci ildən qəzetin tirajı yenidən artırılmış və respublikanın rayonları arasında ən yüksək tirajla çap olunan qəzetlər sırasına yüksələ bilmişdir.

Çox fərəhli haldır ki, bu gün müasir tələblərə cavab verən qəzet artıq oxucular tərəfindən sevilə-sevilə oxunur. Bununla əlaqədar redaksiyamıza çoxlu məktublar, telefon zəngləri gəlir. Məktublarda və telefon zənglərində əhalinin müxtəlif təbəqələrindən olan fəal oxucular qəzetin maraqlı, oxunaqlı dərc olunması üçün öz fikirlərini, rəy və təkliflərini bildirirlər.

Kollektivimiz qəzetin redaksiyasına göstərdikləri diqqətə və qayğıya görə Qəbələ Rayon İcra Hakimiyyətinə və bütün oxucularına öz dərin minnətdarlığını bildirir.

**Qüdrət SƏMƏDOV,**
**"Qəbələ"**

# Milli Mətbuat Günü qeyd olunub

İyulun 21də "Qəbələ" qəzetinin redaksiyasında Milli Mətbuat Günü qeyd olunub.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 22 iyul Milli Mətbuat və Jurnalistika Günü münasibəti ilə redaksiyaya ünvanladığı təbrik teleqramı oxunub.

Qəzetin redaktoru Varis Yaqubov tədbirdə çıxış edərək Azərbaycan milli mətbuatının yaranmasında Həsən bəy Zərdabinin və onun yaratdığı "Əkinçi" qəzetinin müstəsna rolu olduğunu, mətbuatın inkişafının və çiçəklənməsinin ulu öndər Heydər Əliyevin hakimiyyəti dövrünə təsadüf etdiyini, bu gün isə ölkə rəhbərliyi tərəfindən bu siyasətin uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Varis Yaqubov bu gün "Qəbələ" qəzetinin işini peşəkar səviyyədə qurulduğunu və rayonun ictimai-siyasi həyatında baş verən hadisələr, həyata keçirilən tədbirlər barədə məlumatları oxuculara operativ şəkildə çatdırdığını qeyd edib.

O, ölkədə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinin inkişafına yüksək diqqət və qayğı göstərildiyini bildirib.

Çıxışının sonunda o, mətbuat gününün təkcə jurnalistlərin yox, bütövlükdə cəmiyyətimizin bayramı olduğunu qeyd edib.

Tədbir çay süfrəsi arxasında davam etdirilib.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**

# Xoş xəbərlərinizi oxuyaq

Həmişə operativ, obyektiv və ən əsası da oxunaqlı xəbərləri ilə oxucularının görüşünə gələn "Qəbələ" fəaliyyət göstərdiyi illər ərzində oxucuların etimadını və sevgisini qoruyub saxlamağa müvəffəq olub. Dövlətçiliyimizin möhkəmlənməsi və rayonumuzun ictimai-siyasi həyatının işıqlandırılması işinə öz layiqli töhfələrini verən "Qəbələ" istedadlı, peşəkar və kiçik heyəti ilə hələ çox möhtəşəm uğurlara imza atacaq.

Burada çalışan və öz işinin öhdəsindən həmişə layiqincə gələn bütün əməkdaşları 22 iyul Milli Mətbuat və Jurnalistika Günü və qəzetin 85 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, şəxsi həyatlarında uzun ömür, cansağlığı, xoşbəxtlik, işlərində yeni-yeni nailiyyətlər arzulayıram! Daim doğma rayonumuzla bağlı ürəkaçan xəbərlərinizi oxuyaq!

**Tacəddin ŞAHDAĞLI,**
**şair, AYB-nin üzvü.**

# «Qəbələ»–vuran nəbzim

Doğma rayonumuzun güzgüsü olan «Qəbələ» qəzeti sözün əsl mənasında mənim həyatımda böyük rol oynayıb. Məni mən eyləyən «Qəbələ» olub.

1967-ci ilin yanvar ayının 27-də «Yollar qaydaya salınır» adlı ilk məqaləm o vaxt «Qalibiyyət» adı ilə çap edilən qəzetdə dərc olunanda keçirdiyim sevinc hisslərinin həyəcanını heç vaxt yaddan çıxarmıram. Onda 19 yaşıma yenicə qədəm qoymuşdum. Artıq o vaxtdan 51 il keçir. Açığını deyim ki, mətbuat mənim həyat amalım olub. Mən qəzetlə nəfəs almışam. Və bu gün də mətbuatsız nəfəs ala bilmirəm. Məni tanıyanlar da məni «Qəbələ» qəzetindən ayrı təsəvvür etmirlər.

Mən o vaxt qəzetə ayaq açanda həqiqi mənada burada mənə qarşı hədsiz qayğı gördüm. Poeziya şəhəsində ustadım olan 90 yaşlı Tacəddin Şahdağlı o vaxt redaksiyada şöbə müdiri idi. O, hər dəfə məni gülər üzlə qarşılayır, mənə yol göstərir, istiqamət verirdi. Düzdür, həvəsdən salmaq istəyənlər də vardı. Lakin mən ruhdan düşmədim, əksinə bu qəzetə qəlbən bağlandım. Tez-tez redaksiyada görüşlər olur, «Bahar» ədəbi məclisinin yığıncaqları keçirilirdi. Tacəddin müəllim bizə öz kömək əlini uzadırdı. Beləliklə, uzun illər «Qalibiyyət»in ştatdankənar müxbiri oldum. Çoxları elə bilirdi ki, mən qəzetin əməkdaşıyam. Sonsuz nüfuz qazanmışdım. Getdikcə doğma qəzetim mənim qanadlarımı daha da genişləndirdi. Respublika mətbuatına, respublika radiosuna ayaq açdım. Artıq AYB-nin, AJB-nin üzvüyəm. «Qızıl Qələm» media mükafatına layiq görülmüşəm. On dörd kitabın müəllifiyəm. Bünlar böyük qələbə deyilmi? Hamısı doğma «Qəbələ»nin qalibiyyətidir. «Qəbələ» mənim doğma qəzetimdir, vuran nəbzimdir.

Milli mətbuat, günü münasibəti ilə mən də bütün həmkarlarımı təbrik edir, «Qəbələ»mizə daha məzmunlu, daha oxunaqlı yazmağı arzulayıram.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü, «Qızıl Qələm» media mükafatı laureatı.**

# Tarixə çevrilən illər...

Rayonumuzun mənəvi güzgüsü olan "Qəbələ" qəzetinin birinci nömrəsinin işıq üzü görməsindən 85 il keçir. Müxtəlif dövrlərdə "Bolşevik mübarizi", "Mübariz", "Qalibiyyət" və nəhayət "Qəbələ" adı altında buraxılan qəzetimiz 85 ildir ki rayonun ictimai-siyasi həyatının bütün sahələrini öz səhifələrində işıqlandırır.

Qəbələ qəzetində mənim yazılarım 1984-cü ildən dərc edilir. Qəzetdə ilk şeirimin çap olunduğu günün sevincini unuda bilmirəm. Elə o vaxtdan da qəzetin redaksiyası, burada çalışan zəhmətsevər ziyalılarla müntəzəm əlaqə saxlayıram.

Qələmə aldığım əmək qabaqcıllarına, elm xadimlərinə, sadə peşə adamlarına, müəllimlərə, məktəb həyatına və s. mövzularda yazılarım vaxtaşırı qəzetin səhifələrində dərc olunur. Fəal ştatdankənar müxbir kimi fəaliyyət göstərməyimə və ədəbi yaradıcılığıma "Qəbələ" qəzetinin qayğısı və köməyi hədsiz olmuşdur.

Qəzetin əməkdaşları müxbirlərə qayğıyla yanaşır, nədən və necə yazmağa məsləhətlər verir, oxucu məktublarını diqqətdə saxlayır. Elə buna görə də respublikamızın əyalət qəzetləri arasında "Qəbələ"nin özünəməxsus yeri vardır.

Qəzetin səhifələrində dərc olunan məqalələr və ədəbi yazılar mövzu rəngarəngliyi, bədii dəyəri, üslub gözəlliyi, eləcə də mətbu nəşrin mətn və illüstrasiya orijinalları, kompozisiyası və dizaynı müasirliyi ilə diqqəti cəlb edir.

Bəli, "Qəbələ" 85 ildir ki, yorulmadan fəaliyyət göstərir. 85 il!..

Əslində 85 il nədir ki...

Sevimli qəzetimizə hələ uzun illər, qərinələr bundan sonra bol-bol uğurlar, oxucu kütləsini düşündürən maraqlı yazılar hazırlamasını, fədakar əməkdaşlarına isə can sağlığı arzulayıram!

**Cəlil KOMRADLI,**
**"Qəbələ" nin müxbir postunun rəhbəri, şair.**

# Fədakar insanların yaşatdığı "Qəbələ

Milli mətbuatın inkişafında və rayonun ictimai-siyasi həyatında özünəməxsus yeri, rolu və xidməti olan "Qəbələ"nin bütün əməkdaşlarını Milli Mətbuat Günü və qəzetin 85 illik yubileyi münasibətilə Qəbələ Rayon Ağsaqqallar Şurasının kollektivi ürəkdən təbrik edir, hər zaman səsinizin yüksəklərdən gəlməsini arzulayır.

**Nazim MUSTAFAYEV,**
**rayon ağsaqqallar şurasının sədri.**